# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 34 (1114) 24 avqust 2022-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# YARIMÇIQ ÖMÜRƏ ELEGİYA,

## *yaxud sevda notunda "Bir bülbülün türküsü" poeması...*



*Qurban BAYRAMOV,*
*ədəbiyyatşünas tənqidçi*

***Qısa tanıtım:*** Əbilov Əbil Etibar oğlu 1985-ci il iyunun 5-də Neftçala şəhərində dünyaya gəlib. 2003-cü ildə Neftçala şəhər 1 saylı orta məktəbi tamamlayıb. 2003-cü ildə daxil olduğu Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsini 2008-ci ildə bitirib. Bəyazid Bistami, Mənsur Həllac, İmam Qazali, Muhyiddin Arabi, Mövlana Cəlaləddin Rumi, Əzizüddin Nəsəfi, Nəimi, İmadəddin Nəsimi, İbrahim Həqqi... yaradıcılığında təsəvvüf məqamlarını araşdırıb, "Təsəvvüf ədəbiyyatında insani-kamil" mövzusunda elmi əsər yazıb. 2004-cü ildən məqalə və araşdırmaları mətbuatda dərc olunub. 2005-ci ildə "Çöl mədəniyyəti kitabı" Mərmərə və Yaxın Doğu Universitetlərinin İlahiyyat fakültəsindən Doç. Dr. Hasan Ciritin Ön sözüylə Bakıda nəşr olunub. Emine Taşgetirenin "Çocuklar için amentü" (İnanç esasları) kitabını Azərbaycan türkcəsinə uyğunlaşdırıb. 2006-cı il martın 3-də Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu, Asiya Müsəlmanları və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə "Qloballaşmanın çağırışları və müsəlman gəncliyi: Mötədillik yolu" mövzusunda keçirilən seminarda, 21 aprel 2007-də Peyğəmbər əfəndimizin doğumunun 1436 ildönümü münasibəti ilə Türkiyə Səfirliyi Bakı Böyük elçiliyinin keçirdiyi konfransda, 2009-cu ilin 14-16 dekabrında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının birgə keçirdiyi II Beynəlxalq Nəsimi Elmi Konfransında və s. iştirak edib. Bakı Dövlət Universitetində İlahiyyat fakültəsinin "İrfan" və "Bəsirət işığında" qəzetlərini nəşr edib. 2008-2009-cu illərdə hərbi xidmətdə olub. 2009-cu ilin iyulundan 2010-cu ilin iyulun 28-nə kimi Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda çalışıb. 26 yaşında cavan ömrü yarımçıq qalıb, ruhu səmalara qovuşubdur...

Turan sevdalı bu gənc alimin - filosofun, Əbilov Əbilin mənsub olduğu ocaq, sözün həqiqi mənasında, böyük sənət ocağıdır. Bu ocağın sahibi, irfan ocağının baş ocaqçısı babası İmamverdi Əbilov kimi ədəbiyyat şöhrətli, ədəbiyyat hamisi bir zəka sahibi olubdur...Digəri isə ədəbi caməedə məskunlaşmış, şöhrət sahibi, söz sahibi əmisi Azər Turan da, söz xridarı atası Etibar da var! Şair bu irfan ünvanını belə təqdim eləyir:

Bir məbəd tanıyırdım, yolu, izi sadəydi,
Bu müdriklik məbədi İmamverdi Dədəydi...

Sözündə, sənətində ustadlıq yolu vardı,
Nəhəng fikir nəhriydi, şaxəli qolu vardı...

Bir gözü Azər Turan, bir gözü Etibardı,
Bu gözlərdən dünyaya Dədə gözü baxardı.

İmamverdi Dədədən yadigar inci qaldı,
Azər Turan qəlblərdə əbədi məsgən saldı.

Əbədi bir işıq da qəm evində nurlanar,
Bir Turan sevdasında alovlanar, qorlanar...



O sevda türküsünün nəğmələri dillənər,
Baş qoyduğu torpağın zərrələri güllənər...

İmamverdi Dədənin cənnətdəki bağında,
Əbil də söz bülbülü... Ötər öz budağında.

Poemada qədim tarixdən üzü bəri bu günümüzün də insanları olan silsilə obrazlarla rastlaşırıq... Amma bütün tarixi istinadlar, fəlsəfi ümumiləşdirmələr, obrazlı ifadələrlə yanaşı, bu əsərlərin qəhrəmanları nə qədər qədim, nə qədər tarixi olsalar da, onlar mahiyyət və məzmunca real, yaşayan insanlar kimi təqdim edilir, elə bil, müasirimizdir və mənəvi xaraktercə bu günümüzün insanları ilə birləşirlər... Fərqi yoxdur, alimdir, döyüşçüdür, həkimdir, fəhlədir, amma bu günün adamıdır...

Poemada bir Çinar baba obrazı da var. Bu əzəmətli Çinar ("Dədə Çinar" Cəbrayıl qəsəbəsinin girəcəyində idi və bütün bir elin - Cəbrayılın simvoluna çevrilmişdi. Əlirza "Dədə", "müdriklik məbədi", "fikir nəhri" adlandırdığı yazıçı-publisist, ədəbiyyat ağsaqqalı İmamverdi Əbilovu həm də, çinara bənzədir və ona "Pöhrəsidir ruhundan köklü Çinar babanın" - deyə, xitab edir ki, bunu da təsadüfi hesab etmirəm... Çünki, Çinar Əlirzanın təxəyyülündə bütöv bir elin, bölgənin obrazıdır, ona doğmadır, müqəddəsdir... Heç də təsadüfi deyildir ki, Əli Rza Xələfli əvvəllər "Çinar hekayəsi" adlı xatirə-poemasını da yazmışdır:

... Mənim ürəyimdə Xan Çinar adlı,
Hələ yazılmayan bir kitab yatar.
Ömrün dan üzündən yol gələn atlı
Gün kimi doğular, ay kimi batar.

Əslində, "Bir bülbülün türküsü" poeması ömrü yarımçıq qalmış zəka sahibi olan bir gənc alimin tale faciəsinə həsr olunmuş poema-elegiyadır, hüzündür, qəmdir, kədərdir, lirik-dramatik faciədir...

Mojor tondadır, amma qəribədir ki, minor ruhdadır... Başucalığı gətirəcək bir ömürə həzin baxışdır... Əli Rzanın sahib çıxdığı söz mülkünün yüksək ucalıq mərtəbəsindəki bir hücrəsidir...

Əli Rza Xələfli "Bir bülbülün türküsü" düşüncələr poemasını təsadüfən yazmamışdır. Onun bu qəbildən olan - həyatdan aldığı real şəxsiyyətlərə həsr edilmiş, deyərdim ki, silsilə poemaları var. Bu cəhətdən də, o, sanki Səməd Vurğun ənənəsini yaşadır (poemanın ikinci hissəsində Səməd Vurğunun "Muğan" poemasının xatırlanması da,təsadüfi deyil), real həyatdan aldığı, müasirimiz olan, bir az da diqqətdən kənarda qalan (amma əsla qalmamalı) şəxsləri (Səməd Vurğunda - Sarvan, Maya, Bəsdi və s. kimi) poema qəhrəmanları edir... Bu cəhətinə görə, onun bu qəbildən olan poemalarını janr kimi "lirik poema oçerk"lər təkin təsnif edərdim...

*(Davamı 8-ci səhifədə)*

# YARIMÇIQ ÖMÜRƏ ELEGİYA,

## yaxud sevda notunda "Bir bülbülün türküsü" poeması...

*(Əvvəli 1-ci səhifədə)*

Bu poemanı yazana qədər müəllif daxilən uzun bir hazırlıq mərhələsi keçib, mövzunu, necə deyərlər, içində qaynadıb, bişirib... Əldə olan fakta görə bu proses 2010-cu ildən başlayıb gənc filosof Əbilin vaxtsız dünyadan qopması onun babası İmamverdi müəllimi elə sarsıdıb ki, dostu Əlirza Xələfli ilə dərdini bölüşüb, ona 26.12.2010-cu ildə kövrək, nisgilli məktub yazıbdır. Bu məktubun nisgilli bir məqamı "Bir bülbülün türküsü" poemasının bütün ovqatına hopübdür: "Bizi ağlar gözlə taleyin ümidinə qoyub 26 yaşında bu keşməkeşli, acıqlı-mərhəmətli dünya ilə vidalaşan nəvəm Əbilin soyumaz nisgilindəyəm. Atası Etibarın, anası Tənzilənin sonsuz kədərinə el-oba, Muğan, Şirvan... şərik oldu..

Təsəlli ötəri təskinlik gətirdi, Əbili yox! ...Onun millətə-dünyaya əmanət qoyduğu yazılarını gözdən keçirəndə bir daha yəqin etdim ki, təkcə nəslimiz yox, Azərbaycan ziyalılığı necə böyük düşüncə nümayəndəsini torpağa tapşırıb." Bu itki Çinar vüqarlı Çinar Baba İmamverdi müəllimin Neftçaladakı qonaqlı-qaralı, şeirli-şövkətli yazıçılar, şairlər evini qəmlər evinə döndərir, şair Xələflini "qəmxar" edir:

*...Qəmlərinin evində başa çəksən simsarı,*
*Ürəyi tel-tel olar, ağlar qışı, baharı,*
*Özünə həmdəm bilsən bu Xələfli qəmxarı,*
*Qurbanlar sənə deyər hər varı, yoxu, bülbül.*

Bu sətirlər isə Əlirza Xələflinin İmamverdi müəllimə məktubundandır: "Azərbaycan xalqının böyük çinar əzəməti ilə bənzərini tapan müdrikləri, ağsaqqalları çox olub. Əgər belə demək mümkünsə, gözdən-könüldən iraq bir əyaləti xalqın mənəviyyat paytaxtına çevirmək hər kəsə nəsib olmayıb. ...Deməliyəm ki, Sizin yaratdığınız aura, əslində, Şeyx Nizami mənəvi aurasının varisliyidir. Bu, bir tarixi ənənədir. Azərbaycan müdriki, böyük insanlar harada yaşayıblarsa, yaşadıqları yerin torpağını tutiyaya çeviriblər. Bunu Əhməd Yəsəvi üçün də, Cəlaləddin Rumi üçün də, Mövlanə Füzuli üçün də, Mir Həmzə Seyid Nigari üçün də demək olar. Və bizim bir xoşbəxtçiliyimiz də var ki, belə bir tarixi gerçəkliyi tarixi şəxsiyyətə bəxş elədiyi möcüzəli aləmi öz zəmanəmizdə də gördük. Bəli, tarix bizi bu nadir, mənəvi görüntüdən Sizin simanızda ayırmadı."

Burada yaş fərqinə baxmayraq istedadlı və ədəbi mühitdə lazımı səviyyədə tanınan böyük hərfli iki ziyalının heç də, həmişə müşayiət etmədiyimiz, az qala həsrətində olduğumuz bir-birinə qarşı yüksək əxlaqi-etik münasibəti özünü göstərir. Bu cəhət sonradan Əli Rza Xələflinin poemasında bədii formatda əksini tapır:

*Muğan düzdür, hamardır, zirvəsi insanlardır,*
*Zirvələrin zirvəsi Dədə bir ixtiyardır...*

*Əbədiyyət bağında saray qurub, taxt qurub,*
*Könüllərdə yaşarı tale qurub, baxt qurub...*

"İlahi, bu nə qismət, necə taledir. Yaratdığına beş əllə verdiyin bütövlükdə birdən-birə qoparıb aparırsan. İtkinin nə demək olduğunu dərk eləyəndə adam az qalır ki, havalansın. Axı söhbət milli sərvətdən gedir. Azərbaycanın mənəvi simasında ayrıca bir planet ola biləcək zəkanın itkisndən gedir..." - məktubun bu frazasında isə dərdkeşlik, dərdə şəriklik və gələcəkdə böyük fikir ulduzuna çevriləcək gənc zəkanın itkisinin yanğısı öz əksini tapır... Əli Rza sanki, öz əzizini itirib... Bax, budur humanist ziyalı əxlaqı, ziyalı həmkarlığı, ziyalı dərdkeşliyi! Bu dərdkeşlik hissi Əlirzanın qəlbində qövr edir, soyumur və "Yarımçıq ömürə elegiya" essesinə çevrilir...

Bu essedə Əbilovlar ocağının, İmamverdi Əbilov ədəbiyyat məbədinin sirləri çözələnir, özü də necə çözələnir, lap, Afroditanın qızıl yumağı təkin... Esse belə başlayır: "Əbil Əbilov - daha dəqiqi Əbil Etibar oğlu - bir az da dəqiqi Əbil İmamverdi nəvəsi... O kişinin nəvəsi olmaqdan gedir ki, onun ətrafında bütöv bir mənəvi qalaktika yaranıb. Bu qalaktikada hərəkət edən planetlər öz işığı, gücü ilə əslində, başqa qalaktikalara işıq vermək, güc vermək iqtidarındadır. Məsələn, Neftçalada İmamverdi Əbilovun siferasında, onun akvatoriyasında Azərbaycanın ən qüdrətli sənətkarları görünüb. Əslinə qalsa, Azərbaycanın bu ən görkəmli sənətkarları bu diyarda, bu ətrafda onun böyüklüyünü təsdiq etmək naminə görünüblər..." Sonra müəllif bizi, bu ocağın yetirməsi olan Azər Turanla, istedadda, fəhmdə heç də, ondan geri qalmayan qardaşı, yazıçı-publisist Etibar Əbilovla, Etibarın oğlu Əbillə yaxından tanış edir... Bu ocaqdakı şəxslərin hamısı Allahdan gələn bir istedad işığına bələnibdirlər... Bu ailə ocağı əyalətdə - Neftçalada olsa da, öz fəaliyyət sferasına görə milli ziyalı elitanın dəyərlərindəndir...

Essedə bir "külək" obrazı var, əcəl küləyi... El arasında belə bir qarğış da var: "Səni görüm qara yel aparsın!"Bu obraz poemaya da yansıyır:

*...Göy gurladı, sel gəldi mənim könül bağıma,*
*Yarpaqlar pərən-pərən, budaqlar sınıq-sınıq.*

*Yel əsdi, çöl üstümdən, gün döydü hər yanıma,*
*Torpağım cadar-cadar, yovşanım yanıq-yanıq.*

*...Ürəklər duyğunu dilə çatdırar,*
*Aya olmasa da, ilə çatdırar,*
*Bilirəm, səsimi elə çatdırar,*
*Ruhumdan çağlayan bir külək də var...*

Ruhda çağlayan bu külək yaradıçılıq sehridir... Yaradıcılıq sirri-üllahdır!! Yaradıcılıq psixologiyasının elə açılmamış sirləri var ki, bu sirlərin qarşısında "heyrət, ey büt!!"ün özü heyrətə düşür...

Tarixdə yaradıcılığın yalnız seçilmişlərə məxsus olan sakral, mistik fenomen kimi başa düşüldüyü dönəmlər olub. Yaradıcılığın sehri və müəmması yalnız ayrı-ayrı mütəfəkkirlərin maraq dünyasına hakim olub, onun sirrini açmaq dahilərin həyatının mənasına çevrilib. Geniş ictimaiyyəti, insanları bu o qədər də düşündürməyib.

Yaradıcılıq yalnız seçilmişlərin deyil, günümüzdə hər kəsin qarşısında imperativ kimi duran ən fundamental inkişaf faktoruna çevrilmişdir. Çünki yaradıcılıq missiyası yaradılanların ən şərəflisi sayılan, dünya içində yeni dünya yarada bilən insana məxsusdur. Zamanın simvoluna çevrilmiş yaradıcılıq və yaradıcı insan probleminin tədqiqinə, onun mahiyyəti və əhəmiyyətinin dərk edilməsinə bu gün elmi ehtiyac və sosial sifariş mövcuddur.

Yaradıcılıq fenomenini və yaradıcı insanı məhz layiq olduğu missiya baxımından araşdırmağa cəsarət etdiyini oxucu təsəvvürünə gətirsin...

Yaradıcılıq əvəzsiz sərvət və dəyər, insanın İlahi və dünyəvi təyinatından doğan bir hadisə kimi səciyyələndirilir.

Yaradıcılıq fenomeni, peşəkarlıq və yaradıcılığın vəhdəti müəllifin poemaları üçün müəyyən etdiyi mövzuların seçimində, strukturunun məntiqi ardıcıllığında ilk baxışdan özünü göstərir. Yaradıcılıq insan həyatının mənasıdır, missiyasıdır. Müəllif lirik ricətlərlə geniş tarixi ekskurslar edir, olanları, olmuşları canlandırır, sosial əminlik hissi yaradır... Tarixə, keçmişə bu poetik ekskurslar mövcud olan bütün baxış və nəzəriyyələrin müəllifləri ilə əsrlərin üzərindən "dialoq məkanını yaratmaq", deyilənləri təkrar etməmək, yalnız, yeni və fərqli fikir söyləməklə onu daha da zənginləşdirmək üçün əvəzsiz vasitədir. Əli Rzada poetik məntiq, novator yanaşma üsulu da, daxil olmaqla, demək olar ki, pozulmur... Onun "yaradıcı potensialı" az qala, fenomenal tükənməzliyə yönəlikdir...

Onun poetik yaradıcılığına xas olan bir xüsusiyyət də, ondan ibarətdir ki, istənilən problemə birtərəfli deyil, bütövlükdə yanaşılması, həm dini, həm dünyəvi, həm mistik, həm də real və praktiki vəhdətdə götürülməsi onun orijinal olmaqla yanaşı, ən doğru mövqelərdə durduğunu sübut edir... Bu poemada bədii-psixoloji xronotopun qorunması da maraq doğurur. Hadisələr bu xronotop axarında təqdim edilir...

L.Qumilyovun passonarlıq nəzəriyyəsinə görə "Kim olmalısansa, elə də ol!". Əli Rza Xələfli gerçək həyatdan aldığı və çoxlarının tanıdığı gerçək şəxsiyyətləri əsərinin qəhrəmanına çevirərkən obrazın görünən tərəfi ilə bahəm, görünməyən tərəflərini (hətta doğmalarının görmədiyi tərəflərini) görməyi, aşkarlamağı və göstərməyi bacarır... Görmək başqadır, gördüyünü bütün kamilliyi, çalarları ilə göstərmək başqadır... Çoxları görür, amma göstərməyi bacarmır və yaxud dəyərincə göstərməyi bacarmır... Əli Rzaya Allah elə bir təpər verib ki, görməyi də, göstərməyi də bacarır!! O, müşahidə elədiyi həyat hadisələrini ustalıqla və yetərincə bədii şəkildə, şair fəhmi - intuitiv - bəsirət gözü ilə mənalandırdığından təsirli və sirayətedici keyfiyyət qazanır. Və beləliklə də, şox şairə müəssər olmayan ədəbi hadisə baş verir - lirik qəhrəmanla real həyati qəhrəmanlar qovuşur, pərçimlənmir, harmonikcəsinə qovuşur... Poemanın məsnəvi qoşa beytlərində Xəlil Rza Ulutürkün, Namiq Hacı Heydərlinin, Ərmuğanın, Habil Əsədin, Soltan Abbasın, Həbib Həbiboğlunun, Ələvsətin, Sabir Rüstəmxanlının dostu Ələkbərin, Cahangir müəllimin, Zabil Pərvizin adları keçir... Yox, yanlışlığa yol verdim, bu insanların Muğanda - Neftçala bölgəsində mövqeləri, şəxsiyyətləri, İmmverdi ocağının işığının pərvanələri kimi obrazları canlandırılır... Məsələn:

*Gündoğanda işıqlı simaların sayı çox,*
*Sayı çox olanların ziyasının payı çox.*

*Ustad Soltan Abbasın ömür yolu dastandır,*
*Yazdığı, yaratdığı "Bustan"dır, "Gülüstan"dır.*

*Həbib Həbiboğlunun hər sözü bir nəfəsdir,*
*İlhamına yol açan sonsuz istək, həvəsdir...*

Aforizm səviyyəsində olan bu qoşa beyitlərdə adı çəkilən adamların - obrazların bir kitablıq xarakteri mətnin alt qatından boy çəkir. Soltan Abbas yaradıcılıq siqləti ilə Sədi Şiraziyə, Həbib Həbiboğlu "hər sözü nəfəs" olan İsa Məsihə qiyas edilir və fəhmikar oxucunun nəzərlərində bütün parametrləri ilə canlanır... Əbil belə bir məkanda, belə bir mühitdə nəşvü-nüma tapıbdır:

*Gündoğan bir çəməndir, burda güllər açılmış,*
*Dilə gəlib bülbüllər, susqun dillər açılmış...*

*Əbil də bu çəmənin əbədi solmaz gülü.*
*Bir sevda türküsünün əbədi solmaz gülü...*

Bu qoşa beyitlər hərəsi bir fəlsəfi postulatı xatırladır və deyim ki, gəlişigözəl ifadələr deyil, obrazın xarakterinə uyğun məna və mahiyyətə, qoyulan problemə, məzmuna tamamilə uyar, Əlirza Xələfli poeziyasının kod açarına çevrilən aforizm gücündə olan qoşa misralardır və oxucunu məcbur edir ki, oxu, gör bunların arxasında hansı mətləblər, mənalar gizlənibdir... Oxucu hiss edir ki, qeyri-adi, bənzərsiz, filosof və şair düşüncəli, zövqü yüksək məqamda olan bir qələm sahibi ilə həmsöhbətdir. Və belə də olur!..

Əli Rza Xələflinin poetik təhlilləri zərif, şərhləri mənalı, izahları inandırıcıdır. O, təqdim etdiyi obrazların mahiyyətindən əxz etdiyi elə məqamlara toxunur ki, bu yığcamlıqda onların, az qala, bütöv portreti, bu portretin xarakterik mahiyyəti üzə çıxır. Əli Rzanın "Mən şeiri ağrı ilə yazıram" adında bir şeiri var. Şair ağrı keçirməzsə yaxşı şeir zühur etməz... Amma bu ağrı ağrıdan ağrı deyil, yaradıcılıq ağrısıdır, sonunda məlhəm şeir doğulur...

Qeyd etdiyim kimi, Əli Rzanın "Bir bülbülün türküsü..." poeması klassik məsnəvi janrının müasirlik ladındadır... Əli Rza klassik, orta əsrlər məsnəvi janrına yeni, təzə-tər nəfəs verdi... Onda metaforik düşüncə silsiləsi var, amma bundan sui-istifadə etmir. Daxilən klassik məsnəvi estetikasına müxalifətdə, polemikada yeni məsnəvi estetikası calarları impuls edir, şüalanır, klassik, ənənəvi məsnəvi janrında yeni məzmunlu poetik mətn yaranır... Burada süni interpretasiya yoxdur, interpretavlik var... Məsnəvi intonasiyasında fərqli poetik not - səslənmə yaranır... Rəssamlıq anlayışı ilə desək, onun söz palitrasında qövsi-qüzehlik çalarları işimişim işıldayır... Bu cəhətinə görə Əli Rzanın poetik yaradıcılığında və eləcə də, bu poemasında mətnin assosiativlik qatı güclüdür və poetik mətnin görünən, oxunan tərəfi ilə yanaşı, oxucunun fəhminə yönəlik mətnaltı oxunmalı, duyulmalı poetik lay da mövcuddur...

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Bu layda zaman və məkan sərhədləri pozulur, oxucu kosmik çəkisizlikdə olduğu təkin laməkan və lazaman hiss, emosiya, düşüncə "fəzasında" sərbəstləşir, müxtəlif məkan və zamanların ortağına çevrilir:

*Gündoğanda duyğulu ömürlər yaşanırdı,*
*Yarımçıq ömürlərdə ruhlarda daşınırdı.*

*Keçir Asəf Zeynallı... Bülbül "Ölkəm" oxuyur,*
*Bu yaralı nəğməkar taleyini toxuyur.*

*Ərtoğrol Cavid gəlir, taleyi nur içində,*
*Böyük Turan ruhunu yaşadır qor içində.*

*Böyük Qıpçaq çölünün yovşan ətri, qoxusu,*
*Çin oldu Gündoğanda Murad Adcı yuxusu.*

*Ədilin varlığından Orxon, Yenisey axdı,*
*Suqovuşan üstündə gün doğdu, güney axdı.*

Bu misal gətirdiyimiz qoşa beytlərdən də, göründüyü kimi, burada zaman və məkan sonsuzluğunda "Gündoğanda boz çölün türk ruhu çiçəklənir", poemanın qəhrəmanı gənc filosof Əbilin şəxsində "Şərqin fikir aləmi çöl üstünə köçür", Əbilin gənc qəlbində "Sevdalı bir bülbülün nəğməsi dillənir", vaxt axarı boyunca "Nizamidən bu yana ruhları salamlayır", zaman-məkan yerini dəyişir, Səməd Vurğun, Şəhriyar, Bəxtiyar, Məmməd Araz, Söhrab Tahir, Anar, Zəlimxan, Vaqif Səmədoğlu "dəyişən zamanların qovuşan çağında" sənət yallısında qol-qola gəlir, "sözə məcnun" Əbilin varlığında zühur edirlər:

*"Dəyişən zamanların qovuşan çağıdır bu,*
*Şahdağa boy göstərən Savalan dağıdır bu."*

Və bu fikir nəhrinin coğrafiyasında o taylı, bu taylı, Şah dağlı, Savalanlı Bütöv Azərbaycan, Bütöv Turan boy göstərir... Bu Vətən sevgisi deyil, ilahi bir gəncin - Etibar Əbilovun oğlu, Azər Turanın qardaşı balası, İmamverdi Əbilovun nəvəsi Əbil Əbilovun poetik ömür kitabıdır:

*Hər kəsin ömür yolu kitabından başlayır,*
*Gücündən, qüdrətindən, öz təbindən başlayır.*

*Türkün sevda türküsü sənin Çöl kitabındır.*
*Tarixə işıq salan dönməz yol kitabındır...*

*Sənin Əbil adında türkün sözü göründü,*
*Yazında, kitabında türkün özü göründü.*

*...Əbilin könül evi Yəsəvi ocağıdır,*
*Ruhu türkü çağıran bir sevda qucağıdır.*

Əli Rza "Bir bülbülün türküsü" poemasında (diqqət edin - "Bülbülün türküsü" yox, "Bir bülbülün türküsü") "ruhu türkü çağıran, elmində bülbül təkin ötən bir şərqşünas-filosof gəncin yarımçıq ömrünə elegiya yazsa da, bu poemada çöküş ruhu, pessimizm, pasifist ovqat yoxdur:

*...Yol çəkirəm Qarabağdan Gündoğana sözümlə,*
*Neçə ocaq yerindən od götürdüm sözümlə.*

*Mən Əbili görürəm dənizin üfüqündə,*
*Onunla görüşürəm səhərin şəfəqində...*

Əli Rza özü ilə, sözü ilə, ruhu ilə (sözünə hopdurduğu ruhu ilə) həmişə hamının, hər kəsin yanındadır... Onda bu cəhətdən istisna yoxdur... Bir yaradıcı şəxsiyyət tipi kimi doğruya doğandır, yıxılana dayaqdır, bəsirət gözlüdür, oyaq təfəkkürlüdür, şirin-şəkər, bir andaca qılınc kəsər sözlüdür... Kim nə düşünür düşünsün, mən onu belə tanımışam, belə tanıyıram, yəqin ömür vəfa etsə sona qədər belə tanıyacağam!

Bu poema və Əli Rzanın bu sıradan yazdığı əsərləri onun ədəbi-bədii potensialının nə qədər zəngin və tükənməz olduğunun əyani nişanəsidir... Onun yaradıcılıq yolu sağlam və vicdanlı yaradıcı



*Nəimi, Nəsimini sözümə çıraq bildim,*
*İbrahim Həqqini də düz yola soraq bildim.*

Bu məsnəvi beytlərindəki bənzətmələr, giper təşbihlər heç də, təsadüfi, "gəlişi gözəl" söz məqamında deyil, hər bir dahi sənətkarın xarakterini, mahiyyətini kodlaşdıraraq müasir dillə desək, riyazi düstur halında bütöv təqdim edir... Füzulinin irsini Tanrı zəmanəti təkin əmanət kimi, "Nizami ocağını dədə yurdu", Yunis Əmrəni, Yəsəvi irsini ayə qədər mübarək bilir, "Qırxlar məclisinin" sirrini təqdim edir, Cəlaləddin Rumi məsnəvi irsini türk dünyasının xəzinəsi hesab edir, Nəimi, Nəsimi dünyagörüşünü qaranlıqları işıqlandıran çıraq görür, İbra-

# YARIMÇIQ ÖMÜRƏ ELEGİYA,

## *yaxud sevda notunda "Bir bülbülün türküsü" poeması...*

sevdadır... Bu poemada dəhşətli böyük-bütöv Turan sevdası var, sevgidən ötə sevda... Bu poema Türkün bütün varlığının, fikir nəhənglərinin ruhunun söz sandığıdı, fikir boxçasıdır, tarixdən bu günə Türk ruhuna lirik-fəlsəfi ekskursdur...

Mənə elə gəlir ki, bu poemanı Əli Rza yazmayıb, Əli Rzanın könlünə çökən, hopan Türk ruhu yazıb... Əli Rzanın köksünü - sinəsini yarıb onu yuyub, sonra ora Bütün Türk ruhunu doldurublar və indi o ruh Bülbülə dönüb poetik sözün şahbudağında türkün türküsünü ötür...

"Bir bülbülün türküsü" poemasının sonuncu - IV hissəsində əsərin qəhrəmanı - türklük fikir axınının bu güngü gürşadı gənc filosof Əbilin, müəllif Əli Rzanın və Türk dünyasının obrazları birləşir, qovuşur, Orxon, Yenisey, İtil, Amur, Aral nəhrlərinin axarlarında coşub-daşır... Altaydan üzü bəri Qaraqorum səhrasından cövlan edib Qərbə qədər kəhər üstündə şimşək kimi çaxan, qartal təkin şığıyan Atillanın izinə düşür, Yəsəvilərin fikir ocağında qızınaqızına böyük türkün köçündə Alp Ər Tonqaya, Ərtoğrul Qaziyə dönür, "Öz külündən dirilən Türk ruhunun Simurqu olur, "sevda türküsü" oxuyur:

*...Dağılır fikirlərin boz-bulanıq burküsü,*
*Dil-dil ötür, oxuyur Əbil sevda türküsü.*

*Əbilin timsalında istedad parlayırdı,*
*Sanasan göy üzündən Ay nurunu yayırdı.*

*Onun Turan sevgisi Böyük Çöldən keçmişdi,*
*Ulu türkə sevdanı Buta yolu seçmişdi...*

*Əbil türkün varını yığmışdı gözlərinə,*
*Varlığından keçirib düzürdü sözlərinə...*

Başqa bir rakursdan baxsaq, "Bir bülbülün türküsü..." poeması istedadı ulduz təkin parlayıb, gecənin qaranlığında səmada uçub yox olan istedadlı-filosof şəxsiyyətin ədəbi mühitimizdə sayılan-seçilən şahrah yoludur... Və Əlirza Xələfli də, məhz, bu yolun yorulmaz və fədakar müsafirlərindəndir...

O, dönməzliyi, qətiyyəti, səmimiyyəti, təmkinliliyi və eyni zamanda, özünəməxsus çılğınlığı ilə həyatdan aldığı, təxəyyülün məhsulu olmayan, amma təxəyyülünün əsrarəngiz şəfəqləri ilə süsləndirdiyi obrazlara da, təkrarsız və bənzərsiz biçim verməyə asanlıqla nail olur. Həyatda rastlaşdığı, şahidi olduğu hadisələri, görüşüb kəlmə kəsdiyi, dostlaşdığı insanların söz-söhbətini orijinal deyim tərzi və bədii priyomlarla təsvir edir, obrazın daxili-psixoloji məqamlarını aşkarlayır...Yazılarında olduğu kimi, həyatda da orijinaldır, təkrarsızdır. Güclü hafizəsi, fikri - ekspresiv improvizəsi var.

Əli Rzanın "Bir bülbülün türküsü..." poeması istər mövzu və problematika, istər həcm, istər ədəbi növ, janr, istərsə də bədii sənətkarlıq baxımından fərqlənir. Poema dörd hissədən ibarətdir. Klassik gəraylı və ya müxəmməs-qoşma ilə açılan hər hissə, yenə də klassik məsnəvi formatında davam etdirilir və hər qoşa misrada - məsnəvidə bütöv bir obraz canlandırılır və ya təqdim edilir. Məsələn:

*"Mənim könül dünyamda Füzuli əmanəti,*
*Qoruyar öz yerini bu tanrı zəmanəti...*

*Mənim könlüm müəllim - Xaqani məktəbimdir,*
*Vətən eşqi ilhamım, dilim çağlar təbimdir...*

*Dədə yurdu qəlbimdə Nizami ocağıdır,*
*Xəzər dərya ruhumun dalğalı bucağıdır.*

*Yunis Əmrə, Yəsəvi dilimin ayəsidir,*
*Qırxların məclisində ruhumun sayəsidir...*

*Cəlaləddin Rumidən tirmə aldım, şal aldım,*
*Məsnəvidən xəzinə, karvan-karvan mal aldım...*

him Həqqini tanınan məqama qaldırır, düz yolun soraq kitabına döndərir...

Qədim məsnəvi üslubu estetikasından yaradıcılıqla faydalanan müəllif, təzadlı obrazların harmoniyasının təsirliliyinə müasirlik ruhu qatmaqla, motivlərin funksionallığını oxucuya çatdıra bilmişdir. Əlavə edək ki, onun hər bir kompozisiyasında fərqli rakursları bir araya gətirməklə, onların bütövlüyünə nail olması da klassik ənənəyə özünəməxsus münasibətinin nəticəsidir. Odur ki, belə əsərlər zamansızlığa qovuşmuş kimi ən ciddi və möhtəşəm söz sənəti ekspozisiyalarında oxucu diqqətini cəlb etməkdədir...

...Zaman-zaman türkümü eşidib də izləyən,
Sözümdən ocaq çatıb ürəyimi közləyən,
Bilənsən, bilməyənsən, ey yolumu gözləyən,
Sözümdə işığı gör, qanan güllər içində...

Məqaləmi tanınmış şair, Əlirzanın qələm və əməl dostu İsmayıl Mərcanlı İmanzadənin "Səmimiyyətin Əlirza zirvəsi" məqaləsində yazdığı və Əli Rza Xələfli barəsində, hamımızın şərik ola biləcəyi fikirlə bitirirəm: "Var ol, əziz qardaşım Əlirza müəllim. Sənin yalnız özünə məxsus səmimiyyət Zirvən uzaqlardan baxanda da çox açıq-aşkar görünür. Bu zirvədə dayanmağı sən öz halal zəhmətinlə qazanmısan! Bu ucalıq, bu mənəvi sənət zirvəsi ancaq təmiz qəlbə, saf mənəviyyata, yüksək insani keyfiyyətlərə malik olan istedad sahiblərinə məxsusdur. Səsin-sorağın həmişə zirvədən gəlsin, əziz dostum, sevimli eloğlum ƏLİ RZA XƏLƏFLİ!"

İşıq adamı kor da edir, işıq adamı aydınlıqlara da çıxarır. Sönməyən işığın haləsində olanlar bir-birini aydın görə bilir. Əli Rza bu poeması ilə əbədiyyətə - qaranlıqlara qovuşan bir istedadlı gəncin ömrünə məşəl tutdu və bu ömrü əbədi elədi...

***28.06.2022.***